

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 239 (23.401)

19 dekabr 2019-cu il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Mustafa Şentop Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirib, salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş edib.

Görüşdə bu yaxınlarda TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasiminin tarixi hadisə olduğundan, ölkələr arasında dostluq və qardaşlıq əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, enerji sahələrində uğurlu nəticələr verdiyindən, dövlət başçıları arasında mütəmadi görüşlərin bu əlaqələri genişləndirdiyindən bəhs olunub.

* * *

Həmin gün Prezident İlham Əliyev Qazaxıstan Parlament Məclisinin Sədri Nurlan Niqmatulinin başçılıq etdiyi nümayəndə heyətini də qəbul edib.

Görüşdə Azərbaycanda yaxşı investisiya mühitinin olduğu, ölkəmizin investisiyalar üçün cəlbediciliyinin beynəlxalq qurumlar tərəfindən də təsdiq edildiyi bildirilib.

## Vergi siyasəti investisiyanın təşviqində mühüm rol oynayır

***Vergi siyasəti cəmiyyətin ayrı-ayrı sosial qruplarının və dövlətin maliyyə vəsaitlərinə olan ehtiyacının ödənilməsi, maliyyə ehtiyatlarının yenidən bölüşdürülməsi hesabına ölkə iqtisadiyyatının inkişafının təmin edilməsi məqsədilə ölkənin vergi sisteminin formalaşdırılması sahəsində dövlətin həyata keçirdiyi tədbirlərin məcmusudur. Muxtar respublikamızda da iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə dövlətin həyata keçirdiyi iqtisadi, maliyyə və hüquqi tədbirlər içərisində vergi siyasəti mühüm yer tutur.***



Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 21 yanvar tarixli Fərmanı ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" və 2016-cı il 29 aprel tarixli Fərmanı ilə "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası" təsdiq edilib. Bu mühüm dövlət sənədləri muxtar respublika iqtisadiyyatına yatırılan investisiyaların həcminə və strukturuna mühüm təsir göstərib. Dövlət proqramlarına uyğun olaraq sahibkarlığı inkişaf etdirmək, əlverişli biznes və investisiya mühiti yaratmaqla daxili və xarici investisiyaları cəlb etmək həyata keçirilən iqtisadi siyasətin səciyyəvi xüsusiyyətlərindən biri olub. Məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikada sahibkarlar təbəqəsi formalaşıb, özəl sektorun sosial-iqtisadi inkişafında rolu daha da artıb.

Təkcə son 5 il ərzində muxtar respublikada ümumi daxili məhsul 23,5, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 19, əsas kapitala yönəldilən investisiyalar isə 10,1 faiz artıb. Bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq dövlət tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən tədbirlər və azad sahibkarlığın inkişafına, iqtisadiyyata investisiya qoyuluşlarının həcminin artmasına əlverişli şəraitin yaradılmasında Vergi Məcəlləsinin tətbiqinin böyük rolu olub. Belə ki, vergilərin iqtisadi fəallığa uzunmüddətli stimullaşdırıcı təsirini təmin etmək, investisiyaları təşviq etmək məqsədilə mənfəət vergisinin dərəcəsi mərhələlərlə aşağı salınaraq 2003-cü illə müqayisədə 27 faizdən 20 faizə endirilib. 2019-cu il 1 yanvar tarixdən neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektorunda çalışan və aylıq gəlirləri səkkiz min manatdan aşağı olan işçilər 7 il müddətinə gəlir vergisindən azad edilib. Eyni zamanda bütün sahələrdə muzdla işləyən fiziki şəxslər üzrə gəlir vergisinə cəlb edilməyən məbləğ 173 manatdan 200 manatadək artırılıb.

Mikrosahibkarlıq subyektlərinin inkişaf etdirilməsi istiqamətində tətbiq edilən güzəştlərdən biri də sahibkarlıq fəaliyyətindən əldə olunan gəlir və mənfəətin 75 faizinin vergidən azad edilməsidir. Bundan başqa, mikrosahibkarlıq subyekti olan fərdi sahibkarlar və hüquqi şəxslər əmlak vergisindən azad ediliblər.

Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslər 1 yanvar 2014-cü il tarixədək ayrı-ayrı qanunlarla, 1 yanvar 2014-cü il tarixdən isə Vergi Məcəlləsində edilmiş dəyişikliklərə əsasən torpaq vergisi istisna olmaqla 10 il müddətinə vergilərdən azad edilib. Bunun nəticəsidir ki, muxtar respublikada 2014-cü ilin yanvar-oktyabr aylarında 296 milyon 201 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdursa, artıq bu rəqəm 2019-cu ilin yanvar-oktyabr aylarında 38,1 faiz artaraq 409 milyon 327 min 800 manata çatmışdır.

Tətbiq edilən vergi güzəşt və azadolmaları, eləcə də muxtar respublikada sahibkarlıq subyektlərinə göstərilən diqqət və qayğı biznesin inkişafına təkan verib. Vergilər Nazirliyinin "bir pəncərə" dövlət qeydiyyat sistemi vasitəsilə 1 noyabr 2014-cü il tarixə sahibkarlıq uçotuna alınan hüquqi və fiziki şəxslərin sayı 18 min 940 idisə, artıq bu rəqəm 1 noyabr 2019-cu il tarixə 33 min 256 olub. Bunların 2219-u hüquqi şəxs, 31 min 37-si isə fərdi sahibkardır. 1 noyabr 2014-cü illə müqayisədə 1 noyabr 2019-cu il tarixə qeydiyyata alınan fiziki şəxslərin sayında 82,8 faiz artım olub və sahibkarlıq uçotuna alınan fiziki şəxslərin 75,5 faizi muxtar respublika rayonlarının payına düşüb.

Həmçinin muxtar respublikada son 5 ildə yaradılan xarici investisiyalı və müştərək müəssisələrin sayı 16-ya çatıb. Son 2 ildə müəssisələrə 15-dən çox investisiya təşviqi sənədi verilib ki, həmin müəssisələrə Vergi Məcəlləsinə əsasən vergi güzəştləri tətbiq olunub. Qeyd edək ki, investisiya təşviqi sənədini almış fərdi sahibkar və ya hüquqi şəxslər həmin sənədi aldığı tarixdən onların gəlir və ya mənfəətlərinin 50 faizi 7 il müddətinə gəlir vergisindən azaddır.

Prezident cənab İlham Əliyev 2019-cu il 13 sentyabrda "Şərur Sənaye Məhəlləsinin yaradılması və "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Fərman imzalayıb. Fərmana əsasən Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda Şərur Sənaye Məhəlləsində layihəplanlama işlərinə başlanılıb. Vergi Məcəlləsinə əsasən sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən həmin sənaye parkının rezidentləri qeydiyyata alındıqları tarixdən 7 il müddətinə əmlak, torpaq, mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunacaqlar.

Bu göstəricilər onu deməyə əsas verir ki, artıq muxtar respublikada güclü biznes-sahibkar mühiti yaradılıb, dövlətin diqqət və qayğısı məhz bu sahəyə yönəldilib.

**Qəzənfər BAYRAMOV**
***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində daşınmaz əmlakın qeydiyyatı sahəsində tətbiq edilən yeniliklərin təqdimatı keçirilib.***

## Tətbiq edilən yeniliklərin təqdimatı olub



Tədbirdə komitənin sədri Müslüm Cabbarzadə çıxış edərək bildirib ki, məlumatların təhlükəsizliyinin təmin edilməsi, informasiya bazasının arxivləşdirilməsi üçün xüsusi serverlər, məlumat mübadiləsinin daha səmərəli təşkili məqsədilə yeni şəbəkə avadanlıqları alınaraq quraşdırılıb. Torpaqların elektron uçotunun aparılması və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsi məqsədilə xüsusi proqram təminatı hazırlanıb, yüksək dəqiqlikli geodeziya-ölçü cihazları alınaraq komitə əməkdaşlarının istifadəsinə verilib.

Bildirilib ki, həmin tədbirlərin davamı kimi, daşınmaz əmlakın qeydiyyatı sisteminin proqram təminatı yenilənib, daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışların verilməsinə başlanılıb.

Komitə aparatının rəhbəri Nurlan Fətəliyev yenilənmiş internet saytı barədə məlumat verərək bildirib ki, sayt komitənin fəaliyyət istiqamətləri üzrə elektronlaşdırılmış xidmətlərin, tətbiq olunan yeniliklərin daha operativ və dolğun şəkildə istifadəçilərə çatdırılmasını təmin edir. Sayta yeni bölmələr əlavə edilməklə funksionallığı və informasiya yükü artırılıb. Muxtar respublikada keçirilən rəsmi tədbirlərin işıqlandırılması təmin edilib, elanlar bölməsi, sorğu guşəsi, faydalı saytlara keçid imkanları yaradılıb, saytda onlayn xidmət istifadəyə verilib, əmlak kalkulyatoru yerləşdirilib.

İnformasiya texnologiyaları və məlumat bazası şöbəsinin müdiri Arzu Məmmədov komitənin internet səhifəsində elektron xidmətlər bölməsinə əlavə edilən yeni "Daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışın verilməsi" və "Daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışın yoxlanılması" xidmətləri və onların istifadənin üstünlükləri barədə ətraflı məlumat verib.

Sonda suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Ötən ay 142 mənzil və müxtəlif təyinatlı obyekt qazlaşdırılıb

*Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti tərəfindən istehlakçıların fasiləsiz və təhlükəsiz təbii qazla təmin olunması məqsədilə qarşıda duran vəzifələr noyabr ayında da həyata keçirilmişdir. Belə ki, ötən ay muxtar respublikanın şəhər və rayonlarından daxil olan müraciətlərə əsasən 142 mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun da 112-si əhali, 30-u qeyri-əhali abonentlərdir.*

Noyabr ayında qaz təchizatı sistemində mövcud nasazlıqların aradan qaldırılması üçün tədbirlər görülmüş, təbii qazın şaxtalı hava şəraitində nəqli ilə əlaqədar hazırlıq işləri vaxtında başa çatdırılmış, qazpaylayıcı stansiyalarda qazqızdırıcı qurğular işə salınmışdır. Həmçinin qaz təsərrüfatında istismar üçün yararsız xətlərin və avadanlıqların müəyyən edilərək yenilənməsi həyata keçirilmiş, təbii qazdan qanunsuz istifadə hallarına nəzarət gücləndirilmiş, istehlak olunan qazın dəyərinin tam həcmdə toplanması təmin edilmişdir.

Ötən ay qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə 13 müdavimə Naxçıvan Regional Peşə Tədris Mərkəzində Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsi üzrə ixtisasartırma kursunu bitirdiyinə görə sertifikat verilmişdir.

Qaz İstismar Xidmətinin qaynar xəttinə qaz sızması, qaz tənzimləyicilərin nizamlanması, smartkarttipli elektron sayğacların bloka düşməsi və qəza-bərpa işlərinə görə 1598 çağırış daxil olmuş, qəza-bərpa işləri vaxtında aradan qaldırılmışdır.

Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqaməti üzrə işlər davam etdirilmiş, cari ilin noyabr ayında 42 sayğac quraşdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

# Naxçıvanı kəşf etdim

***Böyük Britaniya vətəndaşı Mark Elliot 2019-cu ilin iyun ayında muxtar respublikada səfərdə olmuş və Naxçıvan barədə nüfuzlu "Experience Azerbaijan" jurnalında məqaləsi dərc olunmuşdur. Həmin məqaləni təqdim edirik.***




Nuh Peyğəmbərin məzarı və "Avrasiyanın Maçu Piçusu" Naxçıvandadır. Çox güman ki, bu ərazi barədə eşitməmisiniz. Mədəni və siyasi baxımdan Azərbaycan Respublikasının bir hissəsi olmasına baxmayaraq, coğrafi baxımdan Azərbaycandan ayrı düşmüşdür. Bura eksklavlara və fərqli məkanlara səfər etməkdən zövq alanlar üçün ziyarət həyəcanı təqdim edir.

Azərbaycanın miniatürü kimi, Naxçıvan balaca bir ərazidə olduqca geniş, müxtəlif mənzərələr və adət-ənənələrə malikdir. Batabat ərazisində otla örtülmüş dağlar və göllər, Biçənək ətrafındakı meşəliklər, Haçadağın dramatik qayalıqları və Araz vadisinin cəlbedici yarımsəhra mənzərəsi paytaxt Naxçıvan şəhərindən bir-iki saatlıq məsafədə yerləşir.

Çox cazibədar olmasına baxmayaraq, Naxçıvan ötən əsrdə çoxlu sayda ziyarətçilərin diqqətindən kənarda qalmışdır. Belə ki, bu diyar ticarət baxımından Avrasiyanın əfsanəvi İpək Yolunun bir parçası olmuş, Birinci Dünya müharibəsindən sonra muxtariyyətə çevrilmişdir. Ərazi həssas mövqedə yerləşdiyindən Sovet dövründə əcnəbi turistlər üçün bağlı saxlanılmışdır.

1990-cı ilin əvvəllərində Azərbaycan Respublikasının bu ərazisi Ermənistan tərəfindən blokadaya alınmışdır. O vaxtdan bəri Naxçıvan Muxar Respublikasında yolların yenidən qurulması və sənaye sahələrinin yaradılması (Azərbaycanın əsas avtomobil istehsal edən zavodlarından biri də daxil olmaqla) ilə bağlı mühüm layihələr həyata keçirilmişdir. Son illər Naxçıvanın turizm potensialından da istifadə olunur. Xaricdən gələn qonaqlar bu ərazidə olmağı yüksək dəyərləndirirlər. Xidmət sahələri yaxşı inkişaf edir. Müxtəliflik, qonaqpərvərlik, təbiət mənzərələri, rahatlıq və mətbəx seçimləri Naxçıvanı xüsusilə fərqləndirir.

### *Gözəl vaxt*

Naxçıvan şəhərində turizm infrastrukturuna investisiya qoyuluşu geniş vüsət alıb. 2019-cu ilin yayında açılışı olan Saat Meydanı turistik istirahət mərkəzi buna bir nümunədir. Saat Meydanı müasir üslub və klassik əzəmətin qarışığı ilə memarlıq baxımından fərqli bir konsepsiya əks etdirir. Səkkizguşəli qüllədə hər saat səslənən kiçik musiqili şou Praqa kimi orta əsr şəhərlərindəkitək klassik ekvivalentləri xatırladır. Binanın qalan hissəsi bir az karvansaraya bənzəyir, böyük fəvvarəli həyətin ətrafında ikihissəli tağlar vardır. Bu tağların arxasında Naxçıvanın ən yeni və cazibədar restoranları, dəbdəbəli butik oteli və hətta barista qəhvəsi təklif edilən "İngilis" pivə barı yerləşir. Saat Meydanı gürcü, Anadolu-Türk və Şərqi Asiya restoranlarının cəmləşdiyi ən yaxşı seçimdir. Naxçıvan şəhərindəki tarixi Buzxanada isə turistlərə xidmət edən digər qeyri-adi restoran fəaliyyət göstərir.

### *Novruz bayramı şənlikləri*

Novruz Azərbaycan xalqının ən mühüm bayramlarından biri hesab olunur. Novruz bayramı rəsmi şəkildə mart ayının 21-də keçirilir. Lakin ölkədə bu bayram bir neçə gün öncədən qeyd olunmağa başlayır. Ölkənin hər hansı hissəsinə səfər etsəniz, siz rəngarəng mənzərələrlə qarşılaşacaqsınız. Etiraf edək ki, Naxçıvandakı qədər səhrli tamaşa tapa bilməyəcəksiniz. 1186-cı ildə inşa edilmiş möhtəşəm Möminə xatın abidəsinin yerləşdiyi parkda, Naxçıvanqalada təşkil edilən Novruz şənlikləri çox ecazkar və maraqlı keçir. Milli geyimli



musiqiçilər Novruz bayramına xas olan ab-hava yaradır, qəlyanaltıların təklif edildiyi və yerli istehsal hesabına təşkil olunan guşələr isə Naxçıvan xanlarının bərpa edilmiş sarayına qədər uzanır.

### *Əlincə qalası*

2 min pilləkən ilə Əlincəqalanın zirvəsinə qalxmaq üçün ən ideal vaxtlardan biri mart



ayının sonlarında, Novruz bayramı ərəfəsindədir. Bu qala XII əsrdə Möminə xatının türbəsini inşa etdirən hökmdar tərəfindən də möhkəmləndirilmişdir. Son illər qala bərpa olunub və Azərbaycanın "Maçu Piçu"su adlanır.

### *"İncil" və "Quran" əlaqələri*

Sərin səmanın aydın olduğu gündə nəhəng bir vulkanik konusun qarlı görünüşü Naxçıvanın şimal-qərb üfüqünün üstündə üzür. Bu Nuh Peyğəmbərin heyvanlarla dolu gəmisinin "İncil"də qeyd olunan daşqından sonra tapıldığı Haçadağdır.

Yerli əfsanəyə görə, Peyğəmbər ailəsi ilə birlikdə indiki Naxçıvan şəhərinə yaxın bir ərazidə üzüm bağları əkib-becərirdi. Nuh Peyğəmbərin Naxçıvanqala və nəhəng yeni məscid kompleksi arasında dayanan, orta əsrlərə aid məqbərədə dəfn olunduğu təsdiq edilir. Naxçıvan şəhərinin cənub-



şərqində çəhrayı-qırmızı rəngli geoloji formaya malik olan müqəddəs Əshabi-Kəhf mağarası yerləşir. Müqəddəs "Qurani-Kərim"də adıçəkilən bu dağda inanclı müsəlmanlar 309 il yataraq zülmkarlardan xilas olmuşlar.

### *Naxçıvanda nələri kəşf edəcəksiniz?*

Bu ecazkar diyarda səfər etmək üçün çox maraqlı ərazilər vardır:

- Sovet dövründə aşkar olunmuş duz mədənində yatmaq;
- orta əsrlərdə kərpicdən tikilmiş hamam binasında gizli bir çay evi tapmaq;
- Qafqazın ən yaxşı limonlarının vətəni, tarixi bir oazis şəhəri olan sehrli Ordubad şəhərini görmək;
- aktiv arsen elementinin olduğu müalicəvi mərkəzdə vanna qəbul etmək;
- Haçadağın möhtəşəm zirvəsinə heyran-qalmaq;
- Naxçıvan şəhərinin gözəl muzeylərini pulsuz olaraq ziyarət etmək;
- Qarabağlar kəndində mozaika ilə bəzədilmiş məşhur türbəni tədqiq etmək;
- mənzərəli vadilərdə bir sıra orta əsr körpülərini tapmaq;
- ekzotik, klassik üslubda hazırlanmış Şərq hamam kompleksində çimmək;
- Nehrəm və ya Biçənəkdə nadir quş növlərini müşahidə etmək;
- Batabat gölündə üzən adaları kəşf etmək və 2020-ci ilin qış fəslindən başlayaraq Naxçıvanın Ağbulaqdakı yeni xizək kurortunda özünüzü sınamaq.

### *Səyahət etməyin yolları*

Gündəlik bir neçə avtobus İqdır vasitəsilə Naxçıvanla Türkiyənin müxtəlif şəhərlərini birləşdirir. Bu yol sizi Ağrı



dağının lap yaxınlığına aparır. İrandan gələndə ən rahat keçid məntəqəsi Culfa şəhərindədir. Bu şəhərin yaxınlığında yeni bərpa olunmuş tarixi Gülüstan türbəsi yerləşir. Türbənin yaxınlığından keçən qatarla Araz vadisi boyunca Naxçıvan şəhərinə səfər edə bilərsiniz. İndi dünyanın hər yerindən gələn turistlər gözəl mənzərələrə tamaşa edərək müasir vaqonlarda səyahət edirlər. Naxçıvandan Bakıya gələnlər üçün ən asan seçim hava yoludur. Gündəlik bir neçə uçuş var, lakin yerlər sürətlə satılır. Buna görə də əvvəlcədən sifariş vermək lazımdır.

Naxçıvanda şəhər və kəndlər arasında avtobus xidməti mövcuddur. Məsafələr kiçikdir və taksilərin qiyməti uyğundur. İngilis dilində danışan sürücü və ya bələdçi istəsəniz, ərazidə fəaliyyət göstərən "Natiq Travel" turizm agentliyi ilə əlaqə saxlamağı tövsiyə edirəm.Turizm agentliyi qış gəzintisi turları, endirimli otel rezervasiyaları, alpinizm turları və Gəmiqaya qayaüstü rəsmlərinə baxmağa səfərlər təşkil edir.

---

# Qadınlara sərmayə kapitalı verilib

*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramı tərəfindən maliyyələşdirilən və Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" adlı layihə çərçivəsində növbəti tədbir Şərur rayonunda keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən təlimlərdə öz maraqlı biznes-planı ilə fərqlənən Şərur, Kəngərli, Sədərək rayonlarının qadınlarına sərmayə kapitalı verilib.*

Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Ağayeva çıxış edərək tədbirin mahiyyəti barədə geniş məlumat verib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova muxtar respublikada dövlət qadın siyasətinin əsas prioritet istiqaməti olan qadınların məşğulluğu haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, qadınlara müvafiq sahibkarlıq fəaliyyətləri üçün güzəştli şərtlərlə kreditlər verilir, dövlət tərəfindən müvafiq dəstək göstərilir. Bu, aztəminatlı ailələrdən olan qadınların özünüməşğulluqlarının təmin olunmasına da xidmət edir. Nəticədə, sahibkar və ailə təsərrüfatçısı olan qadınların sayı ildən-ilə artır. Bu isə qadınların digər sahələrdə olduğu kimi, özəl sektorda da yüksək nailiyyətlər əldə etmələrinə öz təsirini göstərir.

Ramilə Seyidova bildirib ki, cari ildə icra olunan "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" layihəsi də muxtar respublikada qadınlara göstərilən qayğının bariz nümunəsidir. Layihədə 34-ü səlahiyyətli imkanları məhdud olmaqla, 319 qadın iştirak edib. Layihənin keçirilməsində əsas məqsəd qadınların ailə və bizneslərində maliyyə idarəetməsi üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi, onların sahibkarlıq fəaliyyətinə dəstək göstərilməsidir.

Layihə çərçivəsində Şərur rayonundan olan sağlamlıq imkanları məhdud 30 qadının iştirakı ilə 12 təlim keçirilib. Ümumilikdə, 63 qadına sərmayə kapitalı verilib. Şərur, Kəngərli və Sədərək rayonlarından olan, öz biznes ideyaları ilə seçilən 20 qadına da müvafiq müqavilələr və aktivlər paylanılıb. Sərmayə kapitalının 80 faizi qadınlara ailə təsərrüfatını genişləndirmək və ya qurmaq üçün, 20 faizi isə toxuculuq, dərzilik, bərbərlik sahəsi ilə məşğul olmaları və ya inkişaf etdirmələri üçün verilib.

Tədbirdə qadınlara, ümumilikdə, 10 baş xırdabuynuzlu, 8 baş iribuynuzlu (1 baş yanı balalı heyvan), 1 soyuducu, 1 meyvəqurudducu soba, 1 meyvədoğrayan, şirəçəkən kombayn, 1 tikiş maşını və digər avadanlıqlar təqdim olunub.

Ramilə Seyidova qadınlara göstərilən qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

Sonra Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova çıxış edərək qadınlarla imzalanan müqavilələr haqqında ətraflı məlumat verib.

Layihə iştirakçısı Aygün Bayramova onlara göstərilən qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Tədbirdə sərmayə kapitalı verilən qadınlara müqavilələr təqdim olunub.

Sonra sərmayə kapitalının dəyərində alınmış aktivlərə yerində baxış olub.

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

---

# Fövqəladə hallara hazırlıq işləri davam etdirilir

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması sahələrində qarşıya qoyulmuş vəzifələr noyabr ayında da icra olunub. Bu dövrdə Fövqəladə Hallar Nazirliyinin xilasetmə və yanğınsöndürmə bölmələrinin daim "Hazırlıq" mərhələsində olması, şəxsi heyətin müxtəlif vaxtlarda "Həyəcan" siqnalı ilə qaldırılması təmin edilib. Struktur qurumlarda təlim-tədris işi təşkil olunaraq Mülki Müdafiə alayında taktiki-xüsusi təlim, Sədərək Rayon Mərkəzi Xəstəxanasında isə mülki müdafiə təlimi keçirilib.

Fövqəladə hallarda fəaliyyəti zəruri olan 41 müəssisə və təşkilatın fövqəladə hallara hazırlıq vəziyyəti yoxlanılıb, aşkar olunan nöqsanların aradan qaldırılması istiqamətində zəruri tədbirlər həyata keçirilib. Təhlükə potensiallı 2 müəssisədə 7 qurğu sınaqdan keçirilərək texniki təhlükəsizlik sertifikatı ilə təmin edilib, 7 avtokranın təhlükəsiz istismar edilməsinə nəzarət olunub, 11 müəssisədə texniki təhlükəsizlik qayda və normalarının pozulması halları aradan qaldırılıb, 2 müəssisə təhlükə potensiallı obyektlərin dövlət reyestrində təkrar qeydiyyatdan keçirilib və 5 müəssisədə mühafizə işinin təşkili yoxlanılıb.

Mülki müdafiə işinin təşkili ilə bağlı müəssisə və təşkilatlara metodik köməklik göstərilib, rəhbər, komandir rəis heyətinin fövqəladə hallara hazırlığı 7 tədris qrupunda 257 nəfər olmaqla təşkil olunub. 15 obyektdə 533 nəfərin iştirakı ilə maarifləndirici tədbir, 31 obyektdə mülki müdafiə qüvvələrinin 743 nəfər şəxsi heyəti ilə qrup məşğələləri keçirilib.

Muxtar respublikada yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə 246 obyektdə yanğın-texniki müayinələr aparılıb, Naxçıvan, Culfa və Şahbuz şəhərlərində, həmçinin hərbi hissələrdə qazanxanalara baxış olub, 2 icra hakimiyyəti orqanında, 53 obyektdə 2116 nəfərin iştirakı ilə maarifləndirici tədbir keçirilib. Yerli icra hakimiyyəti orqanlarının nümayəndələri ilə birlikdə 5441 yaşayış evində qaz və elektrik qızdırıcı cihazlarına baxış keçirilib, 15 min 251 nəfər yanğına qarşı təlimatlandırılıb. Müəssisə və təşkilatlarda izahat işləri aparılaraq 182 nəfərin ocaqçı-maşinist ixtisası üzrə kurslara cəlb olunması, 44 obyektdə daşınmaz əmlakın yanğından icbari sığortası təmin edilib.

Ötən ay tikinti və yenidənqurma işləri aparılan obyektlərə baxış keçirilərək norma və qaydalara uyğun aparılmasına nəzarət olunub, 6 obyektin istismara hazırlığına dair akt verilib.

**Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti**

Duzdağ Fizioterapiya Mərkəzi – 40

# Qırx ilin şahidi...

*Duzdağ Fizioterapiya Mərkəzi dünyada unikal və analoqu olmayan sağlamlıq müəssisəsidir. Yola salmaqda olduğumuz ilin ən əlamətdar hadisələrindən biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında" 2019-cu il 16 may tarixli Sərəncamı ilə bu səhiyyə müəssisəsinin yubileyinin dövlət səviyyəsində qeyd edilməsi oldu. Naxçıvanımızın təbii sərvətinə, eləcə də bu sərvəti keçmişimizdən bu günümüzə daşıyan tariximizə dəyər verilən həmin Sərəncamda deyilir:* ***"Tarixən Naxçıvan Duzdağının və duzunun əhəmiyyəti alimlərin elmi-tədqiqat obyektinə çevrilmiş, geniş arxeoloji tədqiqatlar aparılmış, duzdan səmərəli istifadənin yolları müəyyənləşdirilmişdir. Naxçıvan duzundan məişətdə, sənayedə, təbiətdə və tibbdə geniş istifadə olunur... Təbii şəfa ocağı olan Duzdağ Fizioterapiya Mərkəzi səhiyyə turizmi üçün də perspektivlidir. Müalicə üçün mərkəzə hər il ölkəmizdən və xaricdən 4000-ə yaxın müraciət olur".***

*Ötən 40 ildə mərkəz uğurla fəaliyyət göstərmiş, burada nümunəvi kollektiv formalaşmışdır. Duzdağ Fizioterapiya Mərkəzi yarandığı vaxtdan bu günədək – 40 il bu müalicə müəssisəsinin fəaliyyətinin şahidi olan və səmərəli işinə görə mərkəzin 40 illik yubiley ilində "Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi" fəxri adına layiq görülən Nizami Şahtaxtinski ilə görüşüb həmsöhbət olduq.*

***– Həkim, 40 illik yubileyini qeyd etdiyimiz bu səhiyyə ocağının uğurlu fəaliyyətində sizin də böyük zəhmətiniz olub. Əməyiniz dövlətimiz tərəfindən qiymətləndirilib və təltif olunmusunuz.***



– Həqiqətən də, əməyimə dövlətimiz tərəfindən yüksək qiymət verildi və həmin unudulmaz anı bu gün də böyük sevinc və minnətdarlıq hissi ilə xatırlayıram. Ömrünün 40 ilini eyni müəssisədə insanların sağlamlığına həsr edən bir həkim üçün bundan böyük hədiyyə ola bilməzdi. Qarşıdakı illərdə də Duzdağ Fizioterapiya Mərkəzinin şöhrətinin daha da artmasına, şəfa tapmaq məqsədilə bu ünvana üz tutanların öz sağlamlıqlarına qovuşmasına çalışacağam.

***– Nizami Şahtaxtinski… Soyadınızı eşidəndə xəyalımda çoxşaxəli fəaliyyətləri ilə muxtar respublikamızın ictimai həyatında əvəzsiz rolu olan, dövlət quruculuğunun və hərb sənətinin, elmin, mədəniyyətin, təhsilin, səhiyyənin inkişafına böyük töhfələr verən və bununla da Azərbaycan tarixində özünəməxsus iz qoyan Şahtaxtinskiləri canlandırdım. Düşündüm ki, 40 il eyni tibb ocağında insanlara sağlamlıq bəxş edən insan məhz elə Şahtaxtinskilər nəslinə məxsus ola bilər.***

– Bəli, düşündüyünüz kimidir. Mənim üçün çox qürurvericidir ki, adları tariximizlə qoşa çəkilən Şahtaxtinskilər nəslinin nümayəndəsiyəm. Muxtar respublikamıza dövlət xadimi, hüquqşünas, ədəbiyyatşünaslar bəxş edən bu nəsil böyük bir nəsil olub. Şahtaxtinskilər şəcərəsi 7 qol üzrə böyük bir nəsli təşkil edib. Babamın söylədiyinə görə, biz Şahtaxtinskilərin Cahangir ağa nəslinə mənsubuq. Babamın babası olan Cahangir ağa Almaniyada hüquq təhsili almış, uzun illər Fransada işləmişdir. Naxçıvan şəhərindəki Koroğlu heykəlinin ətrafında vaxtilə olan ucsuz-bucaqsız zəmilər babamın babasına məxsus olub.

Bu məşhur və mövcud olduqları dövrlər boyu cəmiyyətə ziyalılıq şöləsi yayan nəslin bir nümayəndəsi kimi mən də 1977-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu (indiki Tibb Universitetini) bitirib, həkimlik sənətinə yiyələnmişəm. Belarus Respublikasında allerqoloq kimi ixtisasartırma kursu keçib, 1979-cu ildən Duzdağ Fizioterapiya Mərkəzində çalışmağa başlamışam. Daha sonra isə Pulmonologiya ixtisası üzrə sertifikasiya imtahanından keçərək həm də pulmonoloq-həkim kimi fəaliyyət göstərirəm.

***– 66 illik ömür yolunun 40 ili… Çox maraqlıdır və maraqlı olduğu qədər də təəccübedicidir. 40 il eyni iş yerində çalışmaq... Bu həm də nadir təsadüf edilən bir haldır.***

– Bəli, eyni müəssisədə davamlı fəaliyyətim və bu il onun 40 ilə çatması çox insanların – dostların, tanışların, hətta xəstələrimin də təəccübünə səbəb olub. Düzdür, belə hallara cəmiyyətimizdə çox da təsadüf edilmir. Lakin mənə görə bu, adi haldır. İnsan bir iş yerində özünü tapa, sənəti ilə cəmiyyətə xeyir verə bilirsə, hələ, üstəlik, bir zamanlar xəstəsi olanlar sonralar onun ailə dostuna, ən yaxın yoldaşına çevrilirsə, bəli, o iş yerində zaman gəlib 40 ili də haqlayar, hələ 50, 60 ili də.

***– Həkim, maraqlıdır ki, duzla əhatə olunmuş bir məkanda insan, sadəcə, nəfəs almaqla necə sağlığına qovuşur. Görəsən, duzla müalicə ilk dəfə necə müəyyənləşib?***

– Dünya səhiyyə təşkilatının göstəricilərinə əsasən dünya əhalisinin 250 milyona yaxını bronxial-astma xəstəliyindən əziyyət çəkir. Bu xəstəliyin müalicəsində çoxlu üsullar vardır. Onlardan biri də bu xəstələrin duz şaxtası şəraitində müalicəsidir. Buna speleoterapiya (yunanca spelation – mağara, kaha deməkdir), yəni mağara şəraitində müalicə deyirlər. Şaxta şəraitində ilk dəfə müalicə hələ 1871-ci ildə İtaliyanın Florensiya şəhəri yaxınlığında Toksana vilayətinin Monsumman yaşayış ərazisində stalaktit və stalaqmit şaxtalarında revmatik poliartritə tutulmuş xəstələrdə aparılmışdır. Maraqlı bir faktı da deyim ki, Almaniya Federativ Respublikasının Vestfal əyalətində karst şaxtası var. İkinci Dünya müharibəsi dövründə sovet qoşunları Almaniyaya hücum edərkən bombardmandan qorunmaq məqsədilə həmin ərazinin əhalisini bu şaxtaya yerləşdirmişlər. Uzun müddət şaxtada qaldıqdan sonra bronxit və bronxial-astma xəstəsi olanlar burada gərgin əsəb pozğunluğu və qorxuya baxmayaraq, özlərini yaxşı hiss etmişlər. Belə ki, boğulma tutmaları kəsilmiş, öskürək azalmışdır. Müharibədən sonra həmin şaxta tənəffüs sistemi xəstəlikləri üçün müalicə ocağına çevrilmişdir.

Qeyd edirsiniz ki, sadəcə, nəfəs almaqla xəstələr necə müalicə olunur. Bəli, burada müalicə bəzi preparatlar istisna olmaqla, sadəcə, nəfəs almaqladır. Lakin biz allerqoloqlar bu qənaətə gəlmişik ki, effekt şaxtanın xüsusi mikroklimatı, allergenlərin olmaması, havada aerozol şəklində natrium və xlor ionlarının varlığı daimi barometrik



təzyiqin nəticəsində allergik iltihaba reflektorik təsir göstərərək allergik reaksiyaların zəncirini qırır və nəticədə, kliniki, biokimyəvi effektlər yaranır.

***– Nizami həkim, dünyanın bir çox ölkələrində duz şaxtası şəraitində müalicə mövcuddur. Lakin bəzi tədqiqatçılar, hətta burada müalicə alan xəstələr də etiraf edirlər ki, diyarımızdakı duz şaxtası onların hər birindən effektlidir.***

– Duzdağ şaxtalarında mövcud olan hava şəraiti, buranın quruluşu, dəniz səviyyəsindən yüksəkliyi, temperatur, rütubət, atmosfer təzyiqi və oksigenin faizlə miqdarı bronxial-astma və allergik rinit, pollinoz, xroniki bronxit və astmatik komponentli digər xəstələrin müalicəsinin səmərəliliyinə şərait yaradır. Odur ki, mərkəzdə yerli sakinlərlə yanaşı, ölkəmizin dəniz sahili və rütubətli bölgələri olan Bakı və Sumqayıt şəhərlərindən, Gəncədən və digər rayonlardan gələn xəstələr də müalicə alırlar. Şəfa ocağının sorağı ilə bura, həmçinin Rusiya Federasiyası, Türkiyə, İran, Gürcüstan, Qazaxıstan, Qırğızıstan və digər ölkələrin də vətəndaşları gəlirlər. Qürurverici bir faktı da deyim ki, Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasındakı ikitərəfli əlaqələrə uyğun olaraq 2012-ci ildən başlayaraq hər il Acarıstanın aztəminatlı ailələrindən olan və tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən uşaqların Duzdağ Fizioterapiya Mərkəzində pulsuz müalicəsi təşkil edilir.



***– Nizami Şahtaxtinski Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik fəaliyyətinə şahid bir həkim, insan kimi müəssisənin 40 il əvvəlki və sonrakı vəziyyətini necə xarakterizə edir?***

– Təbii ki, bu fərq müqayisə olunmayacaq dərəcədədir. Mərkəz 1979-cu ildə 50 çarpayılıq Naxçıvan Fizioterapiya Xəstəxanası kimi fəaliyyətə başlayıb. Yadımdadır, o zaman xəstələr burada çox çətinliklərlə üzləşirdilər. Çünki şaxtada, eyni zamanda duz da çıxarılır, tunelboyu xüsusi vasitələrlə daşınırdı. Xəstələr isə həmin daşıyıcıların yanlarında qalan dar yolla palatalara keçməli olurdular.

80-ci illərdə şəfa ocağında çarpayıların sayı 100-ə çatdırıldı. Ötən 40 il ərzində müalicəyə gələnlərin sayı artdıqca mərkəzin ərazisi də genişləndirildi. Yeraltı və yerüstü şöbələrin müasir səhiyyə müəssisəsinə çevrilməsi isə son 20 ilin payına düşüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə 2004-cü ildə Duzdağ şaxtası müasir tələblərə uyğun yenidən qurulub, bir neçə il sonra yeni avadanlıqlarla təchiz edilərək çarpayıların sayı 250-yə çatdırılıb, Duzdağ Fizioterapiya Mərkəzi adlandırılıb. Hazırda mərkəzin iki bölməsində 474 yer mövcuddur ki, bunun da 127 çarpayılıq bölməsi "Duzdağ" otelinin balansındadır. Mərkəzin 4 qadın palatasında analarla yanaşı, həm də uşaqlar müalicə alırlar. Müraciət edənlərin sayı artdığından kişi palatasında təmir işləri aparılaraq genişləndirilib və 65 çarpayı artırılıb. Bununla da tələbatın daha çox artdığı yay mövsümündə bizə müraciət edən pasiyentlərin yerləşdirilməsi üçün heç bir problem olmur.



Qeyd edim ki, burada müalicə kursu böyüklər üçün 20-24, uşaqlar üçün 14-18 seansdır. Xəstələr axşam saat 6-dan səhər 8-dək şaxtada olurlar. 2-12 yaşlı uşaqlar gündüz, 12 yaşdan yuxarı uşaqlar isə gecə saatlarında müalicə alırlar. Bu müddət xəstəliyin ağırlığından, yanaşı gedən xəstəliklərdən, ümumiyyətlə, insan səhhətinin vəziyyətindən asılı olaraq dəyişilə bilir. Müalicə başa çatdıqdan sonra böyüklərdə 65-70, uşaqlarda isə 80-85 faiz yaxşılaşma müşahidə olunur.

***– Yuxarıda burada müalicə edilən xəstəliklərin adlarını da sadaladınız. Təbii ki, duz şaxtası sadalanan xəstəliklərin əlacı olmaqla yanaşı, bəzi xəstəliklərə əks-göstəriş də ola bilər.***

– Doğru vurğulayırsınız. Bu, çox həssas məqamdır. Onsuz da xəstələr müayinə edildikdən sonra şaxtaya buraxılır. Lakin bunu bütün xəstələrin bilməsi vacibdir. Bronxial-astma da daxil olmaqla bütün xəstəliklərin kəskinləşmə dövrü, bronxial-astmanın I mərhələsinin ağır bazası və II mərhələ, ürək qüsurları, qan dövranının çatışmazlığı, hipertoniya, böyrəklərin kəskin və xroniki xəstəlikləri, mədənin və onikibarmaq bağırsağın yaraları, xroniki hepatit və xolesistitlər, tireotoksikoz, şəkərli diabetin orta ağırlığı və ağır fazası, burunun polipi və haymoriti, ağciyərlərin vərəmi zamanı duz şaxtasına girmək qadağandır. Çünki bu cür xəstəlik və çatışmazlıqların hər hansı birində xəstələrdə kəskin ağırlaşmalar baş verə bilər.

***– Həkim, ağırlaşmalardan söhbət düşmüşkən, fəaliyyətiniz dövründə belə xəstələrlə qarşılaşmısınızmı?***

– Dəfələrlə. Bu yaxınlarda mərkəzə allergiyadan əziyyət çəkən balaca bir qız gətirmişdilər. Müayinə zamanı uşağın birdənbirə vəziyyəti kəskin şəkildə pisləşdi. Mən təbii və maraqlı olan Çin təbabətini də bir qədər mənimsəmişəm. Öyrəndiklərimə əsasən tibb bacıları yardım edənədək masajla uşağı vəziyyətdən çıxardım.

Lap əvvəlki illərdə başqa bir allergik xəstənin düşdüyü vəziyyəti də həmişə xatırlayaram. O vaxtlar indiki kimi birdəfəlik şprislər yox idi, onlar işlədildikdən sonra qaynadılıb yenidən istifadə edilirdi. Bronxial-astma xəstəsi olan ortayaşlı bir kişi gəlmişdi. Otaqda onu müayinə edərkən birdən vəziyyəti tamamilə kəskinləşdi. Mən dərhal anladım ki, ona bu qaynadılan şprislərdən ətrafa yayılan dərman qoxusu pis təsir edir. Həkim yoldaşlarımın köməyi ilə onu açıq havaya çıxardıq, az sonra xəstənin vəziyyəti sabitləşdi.

Bronxial-astma, allergiya xəstələrinə çox həssaslıqla yanaşmaq lazımdır. Çünki onların vəziyyəti bəzən tək ətrafdakı qoxularla deyil, bir kəlmə sözlə də dəyişilə bilir.

***– Müasir dövrümüzdə bəzi qidalar var ki, insanlar üçün tamamilə zərərlidir. Bir allerqoloq kimi sizin bunlara münasibətiniz...***

– Kim sağlam olmaq istəyirsə, ilk növbədə, qidalara diqqət yetirəcəkdir. Allergiyalı xəstələr isə xüsusilə. Qazlı içkilər, keyfiyyətsiz şokolad, biskvit məhsulları, cipsilər, sitrus meyvələri bu xəstələrin "düşmənidir". Üstəlik, təbii yeməklərə də həssaslıqla yanaşılmalıdır. İstər sağlam, istərsə də allergiyaya meyilli insanda hər hansı bir meyvə əks-göstəriş yaradırsa, o yeyilməməlidir. Həm də günlük yemək menyularına diqqət olunmalıdır. Məsələn, səhər bal yeyilərsə, həmin gün artıq balıq yemək olmaz. Allergiya xəstələri hər gün yumurta yeyə bilməzlər. Yəni bütün bunlara riayət olunarsa, təbii ki, müalicənin də effektivliyi artar.

***– Duzdağ Fizioterapiya Mərkəzinin 40 ilinin şahidi olan həkim Nizami Şahtaxtinskinin bir naxçıvanlı kimi son sözü…***

– Ali Məclis Sədrinin bizimlə görüşü zamanı söylədiyi fikirləri həmişə xatırlayıram: ***"Duzdağ Fizioterapiya Mərkəzi bu gün muxtar respublikanın tanıdılması və təbliğində mühüm rola malikdir. Çünki təbii sərvətimiz olan duzdan həm məişətimizdə geniş istifadə olunur, həm də duz şaxtalarında yaradılmış səhiyyə müəssisəsi insanlara şəfa verir. Dünyanın müxtəlif ölkələrindən mərkəzə müraciət edən insanlar hərtərəfli müalicə almaqla yanaşı, eyni zamanda Naxçıvanı da təbliğ edirlər. Bu da turizmin inkişafına töhfədir. Ölkələr, adətən, turizmin bir sahəsi üzrə ixtisaslaşırlar. Lakin bu gün Naxçıvan Muxtar Respublikasında turizmin müxtəlif növləri, o cümlədən sağlamlıq turizmi inkişaf edir".***

Bəli, Duzdağ bir möcüzədir. Ulu Yaradanın Naxçıvana bəxş etdiyi möcüzə. Mən bir naxçıvanlı, həm də bu möcüzənin ətrafa səpələdiyi şəfanın 40 illik şahidi kimi nə deyə bilərəm? Bu möcüzə ilə qürur duyuram. Neçə illər onlarla klinikalarda müalicə alıb, müsbət nəticə görməyən, daha sonra Naxçıvan Duzdağının sorağı ilə buraya gəlib, gülə-gülə ayrılan, hər il müalicə üçün yenidən bu səhiyyə ocağına qayıdan, hələ, üstəlik, öz yaşadığı yerlərdən başqa xəstələri də özü ilə gətirən insanları gördükcə qürurum da, sevincim də birə-beş artır. Bütün bunlar muxtar respublikamızda müalicə turizminin formalaşmasına, bura turistlərin axınına səbəb olan amillərdir. Bu gün hər kəsin ümdə vəzifəsi ondan ibarətdir ki, əlimizdə olan belə möcüzələri qoruyub, gələcək nəsillərə ötürə bilək. Bununla həm də sahib olduqlarımıza uzun ömür bəxş etmiş olarıq.

***– Maraqlı müsahibə üçün çox sağ olun.***

**Mətanət MƏMMƏDOVA**

# Payızım



*Buludları gözü yaşlı qoyma, gəl,*
*Bağ-bağçanın camalına qıyma, gəl,*
*Nə tufana, nə küləyə uyma, gəl –*
*Könülləri fəğan etmə, payızım!*
*Gəl dərdləşək, küsüb getmə, payızım!*

*Sən gedərsən, ömrə qarlı qış gələr,*
*Qocalaram, yaş üstünə yaş gələr,*
*Qış yerinə bir də bahar kaş gələ.*
*Vermə ömrü xəzan yelə, payızım!*
*Bir ümidim vardır hələ, payızım!*

*Susma, danış, səsindən ilham alım,*
*Baxım gözlərinə, xəyala dalım,*
*Tufanla kükrəyim, çənlə ucalım,*
*Hüsnünü doyunca görüm, payızım!*
*Sənə sözdən çələng hörüm, payızım!*

*İllərin həsrətisən, hicranısan,*
*Ömür baharının axır anısan,*
*Tənha bir qocanın son gümanısan,*
*Yandır ümid çırağını, payızım!*
*Vermə qışın sorağını, payızım!*

*Musiqisən, sənət idealısan,*
*Pak şeirsən, rənglərdən də halısan,*
*Çün xilqəti-aləmə sevdalısan,*
*Şair, rəssam təbiətli payızım!*
*Qəlbi təmiz məhəbbətli payızım!*

*Dağlar sinəsinə çəkir ağ yorğan,*
*Şiş qayanı döyəcləyir sərt boran,*
*Var-dövlətli meşələr qalır üryan,*
*Acıqlanır, tərs-tərs baxır payızım!*
*Getmək vaxtı artıq çatır payızım!*

*Yaradıcı insanlar aşiq sənə,*
*Hər bənzətmə deyildir layiq sənə,*
*Hətta qibtə eyləyir natiq sənə,*
*Bir baxışı yüz nişanə payızım!*
*Hər cavabı dahiyanə payızım!*

*Çoxu kövrək qəlbini hiss etməyir,*
*Sən getsən də xoş xəyalın getməyir,*
*Hüsnünün vəsfinə sözüm yetməyir,*
*Əldə qələm aciz qalıb, payızım...*
*Sən qazandın, sənsən qalib, payızım!*

✍ **Nail ƏSGƏROV**

Yeni nəşrlər

## Gedək Mirzə Cəlil dünyasına...




*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, yazıçı-publisist, yaxın dostum Hüseyn Əsgərov çapdan yeni çıxmış "Mirzə Cəlilin satira desantları Naxçıvanda" kitabını mənə təqdim edəndə ilk ağlıma gələn o oldu ki, əvvəlki kitablarında gördüyüm kimi, bu yeni nəşrdə də ona məxsus olan qeyri-adi (daha dəqiq desək, təbii) yanaşmalarla rastlaşacağam və belə də oldu. Yəni müəllifin, bütövlükdə, Mirzə Cəlil və Mirzə Cəlil yaradıcılığına baxışlarındakı müəyyən məqamları kitabda görməyimə əmin idim və gördüm.*

Öncə onu vurğulayım ki, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən çap olunmuş "Molla Nəsrəddin" jurnalının yeni nəşrinin 8-ci cildində Naxçıvan mövzusu özünə geniş yer tapıb. Hüseyn Əsgərovun qələmə aldığı yeni nəşr də onun bu cilddən aldığı təəssüratlara bir vətəndaş, bir ziyalı baxışının ifadəsidir və kitabın çapa hazırlanması onun dahi mütəfəkkirin 150 illik yubileyinə böyük töhfəsi kimi dəyərləndirilməlidir. Bir məsələni də diqqətə çatdırım ki, bütün yaradıcılığı boyu Hüseyn müəllim bu böyük yazıçı haqqında onlarla dəyərli yazı ərsəyə gətirib, həmin yazılar müxtəlif mətbuat orqanlarında işıq üzü görüb. Bununla da Mirzə Cəlil dünyasının açılmayan qatları ilə mirzəcəlilsevərlər tanış olmaq imkanı qazanıblar. Həmin yazıların təməlindən bir qırmızı xətt keçir: Böyük ustadın yaradıcılıq dünyası əbədiyaşardır, bu gün üçün də aktualdır, sabah üçün də. Bu əbədiyaşarlığı Mirzə Cəlilə qazandıran isə onun əsərlərindəki Vətən, millət, dil yanğısıdır. Və bu yanğı dünyasının coğrafiyası da, təəssüf ki, genişdir. Onu da deyim ki, həmin yazılar mirzəcəlilsevərlər tərəfindən yüksək qarşılanıb. Bütün bunlar onu deməyə əsas verir ki, Cəlil Məmmədquluzadə irsi Hüseyn Əsgərovun təkcə stolüstü kitabı yox, onun mənəvi silahdaşıdır.

Hörmətli oxucu! Hüseyn Əsgərov mirzəcəlilşünas, onun yaradıcılığının tədqiqatçısı deyil; o, bütövlükdə, Mirzə Cəlil həqiqətlərinin müdafiəçisi, tərcümanı, təbliğatçısıdır. Hüseyn Əsgərov Mirzə Cəlilin xalqın özünüdərk ideyalarının daşıyıcısıdır; Vətən, xalq, dil yolunda, inkişaf və tərəqqi uğrunda Mirzə Cəlil ideallarını, bu yolda Vətən, millət yanğısını özündə yaşadanıdır.

Mirzəcəlilsevərlər bu dahi yazıçı, dramaturq və ictimai-siyasi xadimin, kiçik hekayələr ustası və satirik jurnalistin – ən böyük Azərbaycanşünasın təkcə ölkəmizdə deyil, bütün Türk dünyasında yüzlərlə tədqiqatçısı olduğunu, onun yaradıcılığının müxtəlif yönlərdən tədqiq edildiyini, həmin tədqiqatların ədəbiyyatşünaslıq elminin sərvətinə çevrildiyini bilməmiş deyillər və mən yenə xatırlatmaq istəyirəm ki, Hüseyn Əsgərov onun tədqiqatçısı deyil. Ancaq Mirzə Cəlil haqqındakı bu kitab elm adamlarımıza yeni tədqiqat obyekti vermək baxımından böyük əhəmiyyətə malikdir. O mənada ki "Mirzə Cəlilin satira desantları Naxçıvanda" adlı yeni nəşrə, yuxarıda da dediyim kimi, məşhur Azərbaycanşünaslıq kitabımız olan "Molla Nəsrəddin"də sırf Naxçıvan və onun bölgələri ilə bağlı dərc edilmiş məqalə və felyetonlar daxildir. Hüseyn Əsgərov əsl vətəndaşlıq, ziyalılıq prizmasından Naxçıvanla bağlı bu yazılarda oxuculara çatdırılan həqiqətlərə münasibətini bildirib. Bu münasibətdə diqqəti ilk çəkən məqamlardan biri Hüseyn müəllimin, ümumiyyətlə, yaradıcılığına xas olan səmimiyyətdir. "Hacı Məhəmməd qurdun ağzını necə bağlatdırdı?" adlı yazı buna ən gözəl nümunədir: " ... O zaman bu yerlərdə jurnalın yüzlərlə oxucusu Molla əmini sevir, jurnalın hər nömrəsini intizarla gözləyirdilər. Lakin bununla belə, "Molla Nəsrəddin"i ən çox sevən vilayətlərdən biri, bəlkə də, birincisi Naxçıvan idi. Amma sevməyənlər də vardı. Jurnalın 1927-ci ildə çıxan 33-cü nömrəsində taziyanə ilə qeyd olunduğu kimi, onlar "Molla Nəsrəddin"i oxuyub lənət altında qalmaq istəmirdilər.

"Molla Nəsrəddin"in Naxçıvan müxbirləri jurnalın sınaqlardan çıxmış mütərəqqi ənənələrini yeni dövrdə də davam etdirirdilər. Əvvəlki kimi, yenə də bu yazılarda satirik gülüş hakim idi. Amma bu gülüşün hədəfləri də, mahiyyəti də, ruhu da əsaslı şəkildə dəyişmişdi".

Elə digər yazılarda da belə səmimiyyətin və düzgün qənaətin şahidi oluruq. Bu da yeni nəşrin dəyərini artıran amillərdən biri kimi diqqəti çəkir.

İkinci bir məqam isə Hüseyn Əsgərovun "Molla Nəsrəddin"də dərc olunmuş yazılara zaman prizmasından yanaşması və dəqiq müqayisələr aparmasıdır. Burada daha bir nüansa diqqət yetirilməlidir: hardasa əsrə yaxın bir zaman kəsiyindən əvvəl qələmə alınmış yazılar, həmin yazılarda ortaya qoyulan problemlər barədə Hüseyn Əsgərov o dövrü görmüş və yaşamış şahid kimi yox, hadisələrin içində olmuş iştirakçı kimi danışır; daha doğrusu, danışmır, o dövrün yaşantılarını təhlil edir, oxucu da o yaşantıları yaşayır, düşünür.

Bu yerdə müəllifin daha bir qənaətini də oxuculara təqdim etməyi lazım bilirəm: "Mirzə Cəlil bəzən öz yaradıcılığında işlətdiyi bədii boyaları qatılaşdırır, vəziyyəti, bəlkə də, olduğundan daha çirkin, daha ağır, daha naqis göstərirdi. Lakin onu belə hərəkətə vadar edənin özü də müasir vəziyyət, o vaxtın ümumi siyasi və ictimai şəraiti, mübarizənin xüsusiyyəti idi. Bununla belə, Mirzə Cəlil heç də xalqını alçaltmırdı, əksinə, xalqını yüksək tutduğu, onun parlaq keçmişinə və işıqlı gələcəyinə dərindən inandığı, həqiqi vətənpərvər olduğu üçün belə hərəkət edirdi. Çünki xalqının böyüklüyünü, istedadını, iradəsini, qeyrət və hümmətini təsdiq etməyən, ehtiraslı vətənpərvər olmayan ədib bu dərəcədə şiddətli satira işlədə bilməz".

Ustad Mirzə Cəlilə böyük sevgi və ehtiramın ifadəsi olan bu kitabda Hüseyn müəllimin jurnalist qələminin gücü ilə ərsəyə gələn yazılar haqqında geniş söhbət açmaq olar. Ancaq istərdik ki, oxucu özü birbaşa yeni nəşrlə tanış olsun. Bu kitabda Mirzə Cəlil işığı elə ilk sətirlərdən onu öz sehrinə salacaq, iç dünyasına səyahətə aparacaq. Oxucu onu da görəcək ki, bütün zamanlar üçün aktual olan Mirzə Cəlili olduğu kimi təqdim etmək bacarıq, cəsarət, istedad tələb edir və Hüseyn müəllimin qələminin gücü də ondadır ki, o, bunu bacarıb.

*Əziz oxucu! Sizi də bu səyahətə dəvət edirik.*

*Və son olaraq əziz dostumu, mətbuatımızın, jurnalistikamızın cəfakeş nümayəndəsini yeni uğuru münasibətilə təbrik edir, ona bizə yeni kitablarının sevincini yaşatmağı arzulayıram.*

✍ **Muxtar MƏMMƏDOV**

## Ekoloji tədbirlər davam etdirilir



Muxtar respublikanın təbii sərvətlərindən səmərəli istifadənin tənzimlənməsi, flora və fauna ehtiyatlarının qorunması, ətraf mühit komponentlərinə təsirlərin azaldılması və nəzarətdə saxlanılması məqsədilə noyabr ayında da tədbirlər davam etdirilmişdir. Ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi hallarına qarşı mübarizə aparılması məqsədilə 12 yoxlama-reyd keçirilmiş, 1 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbirlər görülmüşdür.

Ötən ay Ordubad, Babək, Sədərək və Şərur rayonlarının yaşayış məntəqələri ərazilərində mövcud sututarlarda monitorinqlər, Araz və Arpaçayın muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan su nümunələri götürülərək analizlər aparılmışdır. Həmçinin 42,5 hektar meşəsalma və meşəbərpa tədbirləri həyata keçirilmişdir.

Yaşıllıqların sahəsinin genişləndirilməsi məqsədilə təpəliklərdə, orta dağlıq və dağlıq ərazilərdə toxumla əkin işləri davam etdirilmiş, 30 hektardan artıq sahədə həmərsin, ardıc, yemişan, badamça toxumları əkilmişdir. 1 hektardan artıq sahədə toxmacarlıq sahələri yaradılmış, 500 kiloqrama yaxın cəviz, badam, alma, ərik, göyrüş toxumlarından istifadə olunaraq əkin işləri aparılmışdır. Toxum tədarükü məqsədilə 3500 kiloqramdan çox ərik, alma, alça, badam, cəviz toxumu yığılaraq anbarlaşdırılmışdır. Xüsusi mühafizə olunan təbiət ərazilərindən qoruq, milli park və yasaqlıqlarda mühafizə tədbirlərinə diqqət artırılmış, muzey eksponatları zənginləşdirilmişdir.

Bitki və heyvanat aləminin qış aylarında qorunması, onların qaba yemə olan tələbatının qismən ödənilməsi üçün 1200 kipdən artıq qaba yem, 2000 kiloqram daşduz tədarük edilmişdir.

Bu ilin noyabr ayında Bakı Ekspo Mərkəzində "Caspian Ecology" 10-cu Azərbaycan Beynəlxalq Ətraf Mühit Yubiley sərgisində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələri də iştirak etmişdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## "Muxtariyyət kuboku"nun qalibləri məlum olub



Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun təşkilatçılığı ilə muxtar respublikanın 9-11-ci sinif şagirdləri arasında keçirilən "İnteqrasiya" inteqrativ-intellektual oyunu üzrə "Muxtariyyət kuboku" yarışının final mərhələsi Naxçıvan şəhərindəki Gənclər Mərkəzində baş tutub.

Bu münasibətlə təşkil olunan tədbirdə çıxış edən Gənclər Fondunun əməkdaşı Arzu Qasımov bildirib ki, "Muxtariyyət kuboku" yarışının artıq 4 aydır ki, muxtar respublika məktəbliləri arasında seçmə mərhələləri keçirilib. Bu gün isə seçilmiş Naxçıvan şəhər və muxtar respublika rayonlarının fərqlənən komandaları final mərhələsində mübarizə aparırlar.

Sonra final oyununun qaydaları izah edilib və oyuna start verilib.

İştirakçılar komanda şəklində hər bir test sualını 2 dəqiqə ərzində müzakirə edib, cavab yazılı formada aparıcıya təqdim olunub.

Oyunun gedişində Naxçıvan şəhər və Babək rayon komandaları arasında "Böyük final" oynanılıb.

Sonda "Muxtariyyət kuboku" uğrunda keçirilən intellektual yarışın qalibi olan Ordubad rayonunun "Tarix" komandasının üzvləri Gənclər Fondunun kubok, medal, diplom və qiymətli hədiyyələri ilə mükafatlandırılıblar.

II və III yerlərə layiq görülən Şahbuz rayonunun "Zoologiya" və Naxçıvan şəhərinin "İnformatika" komandalarının üzvləri də fondun diplomu ilə təltif ediliblər.

**Xəbərlər şöbəsi**

### *İtmişdir*

Abbasov Əsgər Rəsul oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Abbasova Gövhər Əyyub qızının adına olan 1010$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Babək rayon Şıxmahmud kəndində yerləşən "Ərzurum" kooperativinə məxsus 000153 nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 864